Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Gideonun Kiçik Ordusu

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest; Alastair Paterson

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Yeşua öləndən sonra bütün İsrail xalqı Allaha itaətsizlik etdi və Onu həyatlarından çıxartdı. Allah qonşu ...


... Midyanlılara İsraillilərin Taxıllarını və evlərini yandırmalarına izin verdi.
İsraillilər mağaralarda yaşamalı oldular.


Bir İsraillinin, Gideonun
yəqin ki, taxılı becərmək
üçün gizli bir yeri var
imiş. O, taxılı böyük
bir ağacın
altında ...


... gizlədilmiş üzüm əzənlə döydü. Midyanlar yeri bilmirdilər, amma Allah bilirdi! Allah Gideonun yanına
bir xəbər ilə mələk göndərdi.

Allah istəyirdi ki, Gideon yalançı allah təsviri olan öz atasının şəklini məhv etsin və həqiqi Allaha qurbangah tiksin.  Gideon öz yerlilərinin onu öldürməsindən qorxduğuna baxmayaraq, o, Allahın əmrini yerinə yetirdi.



Allah həmçinin Gideonu zalım Midyanlılara qarşı İsrail ordusuna başçılıq etməsini istəyirdi. Lakin Gideon qorxurdu. O, Allahın onunla olması üçün xüsusi bir əlamət istədi.



O, qıvrım qoyun yununu yerə qoydu.



“Əgər qoyun
yunu üzərində
şeh varsa
və torpaq
qurudursa”,
Gideon dua
etdi “onda
mən
biləcəyəm ki,
dediyin kimi, Sən İsraili
mənim əlimlə xilas edəcəksən”.
Səhər tezdən torpaq quru, lakin
QOYUN YUNU YAŞ İDİ!

Gideon hələ də şübhə edirdi. İndi o istəyirdi ki, Allah qoyun yununa yox, torpaq üzərinə şeh göndərsin.

Növbəti gün torpaq yaş,
QOYUN YUNU İSƏ
QURU İDİ!



Gideon 32 000 ordu topladı. Allah onun ordusunun sayını 300 nəfərə saldı. Allah İsrailin “mənim öz əllərim məni xilas etdi” deməsini istəmirdi. Yalnız Allah İsrailin Xilaskarı idi.



Gideonun hələ də qorxduğunu bilərək, Allah ona gizlicə Midyan əsgərlərinin digərinə qəribə yuxusu haqqında danışdığına qulaq asmasına izin verdi. Yuxuda yumru çörək Midyanlıların çadırına qarşı getdi və onu dağıtdı.



Digər gözətçi vahiməyə düşdü. “Bu, ... Gideonun qılıncıdır” o qışqırdı. Gideon yuxunu və onun mənasını eşidəndə bildi ki, Allah ona qələbə verəcək.



Gideon gecə hücumu planlaşdırdı. O, hər bir əsgərə şeypur və içərisində məşəllər olan boş dolçalar verdi. Onlar Midyan ordusunu əhatəyə aldılar.



Gideon işarə verəndə əsgərlər şeypurlarını çaldılar, dolçalarını qırdılar və məşəllərini yandırdılar.  Necə də səs-küy qalxdı! Necə bir çaşqınlıq oldu! Qorxmuş Midyanlılar qalxdılar və qaçdılar.



Bu böyük qələbədən sonra İsraillilər onların üzərində hakim olmasını Gideondan xahiş etdilər.



“Mən sizin üzərinizdə hakim olmayacağam…
Rəbb sizin üzərinizdə hakimlik etməlidir”
Gideon cavab verdi.



O bilirdi ki, yalnız Allah insanların həyatında hakimlik etmək hüququna malikdir.



# Gideonun Kiçik Ordusu

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Hakimlər 6-8

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**